**Bakı Xəbər.** - 2024. - 21 iyun. - № 106. - S. 8.

# Tolerant mühit COP29-un hədəflərinin tam icrasında vacib şərtdir...

**Məhəmmədəli Qəribli**

**Azərbaycan bugünkü inkişafı ilə, siyasi, iqtisadi, hərbi, mədəni və sair istiqamətlər üzrə əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan bir ölkəyə çevrilib. Azərbaycan dünyada tolerant və multikultural dəyərlərə malik dövlət kimi də tanınır.**

Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir. Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir.

**Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili multikulturalizm siyasətimizi bir daha dünya ictimaiyyətinə təqdim edir**

Buna misala olaraq, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi, əlbəttə ki, ölkəmizə olan daha bir ehtiramın təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd edib ki, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçirilməsi ilə bağlı verilən bu qərar bütün dünya ölkələri tərəfindən qəbul edilib və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilib: “Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı”.

Ölkə səsləndirdiyi fikirlər və dünya ölkələrinə verdiyi mesajlar onu deməyə əsas verir ki, Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi ölkəmizin növbəti təntənəli qələbəsidir.

**Həm də Bakı üçün haqq səsini çatdıran qlobal tribuna olacaq**

Azərbaycanın müstəqillik əldə etməsindən sonra uzun bir dövr ərzində iri platformalara çıxışının olmaması, yaxud bu tribunalara çıxışının qəsdən məhdudlaşdırılması ciddi fəsadlara yol açıb, ölkəmiz əleyhinə koalisiyalara rahat hərəkət etmək imkanı verib. Lakin Prezident İlham Əliyev artıq elə bir geosiyasi reallıqlar yaradıb ki, indi Azərbaycanın nəinki qlobal arenaya çıxış imkanını təmin edib, üstəlik, özü belə platformanın təşkilatçısıdır. O cümlədən də COP29-a məhz ölkəmizin e vsahibliyi etməsi Azərbaycana beynəlxalq ictimaiyyətin böyük etimadı olmaqla yanaşı, həm də Bakıya haqq səsini çatdırmaq üçün qlobal tribuna olacaq.

COP29-un miqyasını nəzərə alsaq, bu, Azərbaycan üçün böyük fürsətdir. Xüsusən nəzərə alsaq ki, bu, azarkeş kütləsinin, yaxud musiqi həvəskarlarının axın etdiyi tədbir deyil. Bakıya gələcək on minlərlə insan ilk dəfə Azərbaycanda olacaq və bu insanlar ölkəmiz barədə reallıqları birbaşa öyrənəcək. Bu isə bizə qərəzli olan təşviqat maşınının iflası deməkdir.

**İştirak edənlər həm də bu dəyərlərin ölkəmizdə necə qorunduğuna şahidlik edəcəklər**

Azərbaycan ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi hədəf kimi müəyyən etmiş dövlətdir.

Forumun digər uğuru regionun əsas problemi olmuş, Azərbaycan-Ermənistan münasibətləri barədə qlobal auditoriyanı reallıqla səhih formada tanış etmək imkanına çevrilməsi olub. Məlumdur ki, Azərbaycanın mövqeyi kifayət qədər şəffafdır və beynəlxalq hüquqla uzlaşır.

Dünyada geosiyasi vəziyyət gərginləşdikcə, insanların, eləcə də dövlətlərin, dinlər və millətlər arasında tolerant və multikultural dəyərlərin inkişaf etdirilməsinə və qorunmasına ehtiyac daha da artır. Çünki bütün bu münaqişə və müharibələrin kökündə qarşılıqlı anlaşılmazlıqlar və bir-birlərinə qarşı dözümsüzlük durur. Bunun qarşısının alınmasının yeganə yolu isə dünyada birgə yaşayışın mükəmməl forması olan, dini və milli dözümlülüyü özündə ehtiva edən multikulturalizmi və tolerantlığı təbliğat və təşviq yolu ilə inkişaf etdirməkdir. Bu gün Qərbin aparıcı dövlətlərinin multikulturalizmdən imtina etməsi

fonunda Azərbaycan multikulturalizm modelinin dünyada nümunəvi birgəyaşayış forması kimi qəbul olunması, ölkəmizin son illər bu sahədə gördüyü qlobal işlərin nəticəsidir. Azərbaycanda multikulturalizm dövlət siyasətinin mühüm istiqamətinə çevrildi. Bu, sadəcə müəyyən dövrü əhatə edən bir kampaniya deyil. Bu gün Azərbaycanda multikulturalizm dövlətimizin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasətidir. Bu ideya dövlətin xarici siyasət kursunda da kifayət qədər özünü əks etdirir. Bakının ev sahibliyi edəcəyi tədbirdə iştirak edənlər həm də bu dəyərləri ölkəmizdə necə qorunduğuna şahidlik edəcəklər.